# “AZƏRBAYCAN ALPİNİZM FEDERASİYASI”
## ictimai birliyinin

## N İ Z A M N A M Ə S İ

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. "Azərbaycan Alpinizm Federasiyası" ictimai Birliyi (bundan sonra - Birlik adlandırılacaq) ümumi maraqlar əsasında birləşmiş, könüllülük, üzvlərinin hüquq bərabərliyi prinsipləri əsasında yaradılan, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvlərinin arasında bölməyən qeyri-hökumət təşkilatıdır və fəaliyyəti Azərbaycan Respublikasının ərazisini əhatə edir.

1.2. Birlik öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları, digər normativ hüquqi aktlar və bu Nizamnamə əsasında həyata keçirir.

1.3. Birlik Milli Olimpiya Komitəsinin rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən dövlət akkreditasiyasından keçdikdən sonra respublika idman federasiyası statusunu əldə edir.

1.4. Birlik Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alındığı vaxtdan hüquqi şəxs statusu əldə edir. Birliyin müstəqil balansı, üzərində adı yazılmış möhürü, ştampı, Azərbaycan Respublikasının banklarında hesablaşma hesabı və digər rekvizitləri vardır.

1.5. Birliyin hüquqi ünvanı: Bakı şəhəri, 8 noyabr prospekti, 61

## 2. BİRLİYİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

2.1. Birliyin əsas məqsədi alpinizm (idman, sənaye və xizək alpinizmi), qayayadırmanma, idmandırmanma, buzadırmanma, drytuling, dağ turizmi (traking və hiking) idman növünün təbliğinə və inkişafına kömək etməkdir.

2.2. Birlik məqsədlərinə çatmaq üçün aşağıdakı vəzifələri həyata keçirir:

2.2.1. öz səlahiyyətləri çərçivəsində milli yığma komandaları formalaşdırmaq və alpinizm üzrə beynəlxalq yarışlarda onların iştirakını təmin etmək;

2.2.2. alpinizm (idman alpinizmi), qayayadırmanma, buzadırmanma, idmandırmanma ski alpiniz və traking və hiking  idman növləri üzrə yüksək səviyyəli idmançıların hazırlığı sistemini təkmilləşdirmək;

2.2.3. alpinizm (idman alpinizmi), qayayadırmanma, buzadırmanma, idmandırmanma, ski alpiniz, traking və hiking  idman növləri üzrə idmançıların, məşqçilərin, idman sahəsində çalışan digər mütəxəssislərin sosial müdafiəsi üçün şəraitin yaradılmasında iştirak etmək, idman veteranlarının qayğısına qalmaq;

2.2.4. 2.1-ci bənddə qeyd edilən idman növləri ilə bağlı infrastrukturu təkmilləşdirmək, eko və idman marşrutlar müəyyən etmək;

2.2.5. Dağ idman növləri üzrə təlimatçıları və bələdçiləri yetişdirmək və onları sertifikatlaşdırmaq;

2.2.6. idmanda dopinq vasitələri və (və ya) üsullarından istifadəyə, eləcə də idmanda ayrı-seçkilik və zorakılığa qarşı fəaliyyət göstərmək, mübarizə aparmaq;

2.2.7. idman yarışlarının manipulyasiyasına qarşı mübarizə aparmaq və bununla əlaqədar normativ hüquqi aktlara uyğun olaraq müvafiq tədbirlər görmək;

2.2.8. "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa və milli antidopinq qurumunun

qaydalarına uyğun olaraq, idmançıya və ya onun köməkçi heyətinə sanksiya tətbiq edildiyi halda, həmin sanksiyaların icra olunmasını təmin etmək.

2.3. Birlik uşaq-gənclər idmanının inkişafına, idman məktəblərinin fəaliyyətinə kömək göstərir.

2.4. Birlik beynəlxalq idman təşkilatlarına üzv ola, beynəlxalq idman təşkilatlarının üzvü statusuna uyğun şəkildə qanunvericiliyə zidd olmayan hüquqlar əldə edə və vəzifələr daşıya bilər.

2.5. Birlik dövlət qeydiyyatına alındıqdan sonra otuz gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin edir.

2.6. Birlik Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və bələdiyyələrin seçkilərində iştirak edə bilməz.

## 3. BİRLİYİN HÜQUQLARI

3.1. Birlik aşağıdakı hüquqlara malikdir:

3.1.1. öz səlahiyyətləri çərçivəsində bədən tərbiyəsi və idman sahəsində normativ hüquqi aktların və idman növlərinin inkişafı proqramlarının işlənib hazırlanmasında və həyata keçməsində iştirak etmək;

3.1.2. alpinizm üzrə müxtəlif səviyyəli yarışların keçirilməsi sistemini təkmilləşdirmək, ölkə ərazisində alpinizm (idman, sənaye və xizək alpinizmi), qayayadırmanma, idmandırmanma, buzadırmanma, drytuling, dağ turizmi (traking və hiking) idman növləri üzrə çempionatları, birincilikləri, kubok yarışlarını və digər respublika, həmçinin beynəlxalq idman yarışlarını təşkil etmək və keçirmək;

3.1.3. alpinizm (idman, sənaye və xizək alpinizmi), qayayadırmanma, idmandırmanma, buzadırmanma, drytuling, dağ turizmi (traking və hiking) idman növləri üzrə məşqçilərin, hakimlərin, bədən tərbiyəsi-idman sahəsində digər mütəxəssislərin hazırlanması, əlavə təhsili və attestasiyası üzrə tədbirlər həyata keçirmək;

3.1.4. idmançıların bir bədən tərbiyəsi-idman təşkilatından digərinə keçməsi məsələlərinin təşkilində iştirak etmək;

3.1.5. beynəlxalq idman təşkilatlarının reqlamentləri və qanunvericilikdə müəyyən olunmuş qaydada alpinizm (idman, sənaye və xizək alpinizmi), qayayadırmanma, idmandırmanma, buzadırmanma, drytuling, dağ turizmi (traking və hiking) idman növləri üzrə idman klublarının fəaliyyətinin əlaqələndirilməsində iştirak etmək;

3.1.6. öz səlahiyyətləri çərçivəsində xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman təşkilatları ilə beynəlxalq əlaqələri inkişaf etdirmək və möhkəmləndirmək;

3.1.7. Birliyin üzvləri ilə üzvlük müqaviləsi bağlamaq və üzvlük haqlarını toplamaq;

3.1.8. öz adından əqdlər bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək;

3.1.9. Azərbaycan Respublikasının ərazisində və xaricdə filial və nümayəndəliklərini təsis etmək;

3.1.10. müxtəlif təşkilatlara üzv olmaq, beynəlxalq təşkilatlarla əlaqələr saxlamaq;

3.1.11. banklarda hesablar açmaq və hesablaşmalar aparmaq;

3.1.12. müstəqil balansa, möhürə, ştampa və digər rekvizitlərə malik olmaq;

3.1.13. Birliyin yaradılması məqsədlərinə nail olunmasına yönəldilmiş sahibkarlıq fəaliyyətini həyata keçirmək;

3.1.14. sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.1.15. Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək.

## 4. BİRLİYİN ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

4.1. Birliyin mülkiyyətində binalar, qurğular, mənzillər, avadanlıqlar, inventarlar, pul vəsaitləri, səhmlər, digər qiymətli kağızlar və bu Nizamnamə ilə nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər.

4.2. Birlik öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər.

4.3. Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılması mənbələri aşağıdakılardır:

4.3.1. təsisçilərin və ya Birlik üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;

4.3.2. idarə, müəssisə, yerli və beynəlxalq təşkilatların və vətəndaşların könüllü verdikləri haqlar və ianələr;

4.3.3. səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;

4.3.4. öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;

4.3.5. malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən gəlirlər;

4.3.6. qrantlar;

4.3.7. sərgilərdən, yarışlardan və digər tədbirlərdən əldə olunan gəlirlər;

4.3.8. təsis etdiyi müəssisələrin fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;

4.3.9. qanunvericilikdə qadağan olunmamış digər mədaxillər.

4.4. Birliyin üzvləri onun mülkiyyətinə daxil olan ayrı-ayrı obyektlər üzərində xüsusi hüquqlara malik deyil.

4.5. Birlik Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada öz fəaliyyətinin məqsədlərinə və əmlakın təyinatına müvafiq olaraq öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququna malikdir.

4.6. Birliyin hesabına daxil olmuş məqsədli vəsait başqa istiqamətlərdə xərclənə bilməz.

4.7. Birlik siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.

4.8. Birlik qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə, statistik və sair hesabatlar tərtib edir və dövlət orqanlarına təqdim edir.

## 5. BİRLİYİN TƏSİSÇİLƏRİ VƏ ÜZVLƏRİ, ONLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

5.1. Birliyin təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına çatmış fiziki şəxslər ola bilərlər.

5.2. Təsisçilər bərabər hüquqlara malikdirlər. Təsisçilərin qarşılıqlı münasibətləri, hüquq və vəzifələri qanunvericiliklə, yaxud onların arasında bağlanmış müqavilə ilə və ya bu Nizamnamə ilə müəyyən edilir.

5.3. Azərbaycan Respublikasında hər bir fiziki və hüquqi şəxs (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) Birliyin üzvü ola bilər. Birliyin təsisçiləri həm də Birliyin üzvləri hesab olunurlar.

5.4. Birliyə üzvlərin qəbulu Birliyin İdarə Heyəti tərəfindən aparılır.

5.5. Birliyə daxil olmaq üçün İdarə Heyətinə yazılı şəkildə müraciət edilir. Ərizəyə bir ay müddətində baxılır. Səsvermə nəticəsində İdarə Heyətinin üzvlərinin yarıdan çoxu bu məsələyə müsbət münasibətlərini bildirdikdə, ərizəçi Birliyin üzvü seçilmiş hesab edilir.

5.6. Birliyin üzvlərinə Ümumi Yığıncaq tərəfindən təsdiq edilmiş formada üzvlük vəsiqəsi verilir və onların Ümumi Yığıncaqda iştirakı həmin vəsiqə əsasında həyata keçirilir.

5.7. Birliyin üzvləri öz aralarında bərabərhüquqlu olub aşağıdakı hüquqlara malikdirlər:

5.7.1. bu Nizamnamədə və digər sənədlərdə nəzərdə tutulmuş qaydada təşkilatın idarəçiliyində iştirak etmək;

5.7.2. Birliyin hər hansı seçkili, o cümlədən rəhbər orqanına seçmək və ya həmin orqanlarda təmsil olunmaq;

5.7.3. Birliyin fəaliyyətində və təşkil etdiyi tədbirlərdə iştirak etmək;

5.7.4. Birliyin rəhbər orqanlarının fəaliyyəti barədə məlumat almaq, fəaliyyətinə nəzarət etmək;

5.7.5. öz mənafelərinin müdafiəsinə kömək göstərilməsi üçün Birliyə müraciət etmək;

5.7.6. onun hüquq və vəzifələri ilə bağlı hər hansı məsələnin müzakirəsində şəxsən iştirak etmək, Birliyin müvafiq orqanlarına etirazını bildirmək və şikayət etmək.

5.8. Birliyin üzvü eyni zamanda iki seçkili orqanın üzvü ola bilməz.

5.9. Birliyin üzvü yalnız Birliyin müvafiq orqanları səlahiyyət verdikdə həmin orqanı təmsil edə və ya onun adından bəyanatla çıxış edə bilər.

5.10. Birliyin üzvləri aşağıdakı vəzifələri daşıyırlar:

5.10.1. Birliyin Nizamnaməsinə, üzvlük müqaviləsinə, Birliyin qərarlarına, həmçinin əxlaq və etika normalarına əməl etmək;

5.10.2. Birliyin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;

5.10.3. Nizamnamə tələblərinə riayət etmək;

5.10.4. üzvlük haqlarının vaxtında və tam həcmdə ödənilməsini təmin etmək;

5.10.5. Birliyin tədbirlərində iştirak etmək.

5.11. Birliyə üzvlük haqqının miqdarı İdarə Heyəti tərəfindən müəyyən edilir. Növbəti il üçün illik üzvlük haqqı həmin ilin yanvar ayının 31-dək ödənilməlidir.

5.12. Birliyə üzvlüyə aşağıdakı hallarda xitam verilir:

5.12.1. könüllü olaraq Birliyin üzvlüyündən çıxdıqda;

5.12.2. Birliyin üzvlüyündən çıxarıldıqda.

5.13. Birliyin üzvü aşağıdakı hallarda üzvlükdən xaric edilir:

5.13.1. Birliyin adına ləkə gətirən hərəkətlərə yol verdikdə;

5.13.2. Mütəmadi olaraq Birliyin işində iştirak etməkdən boyun qaçırdıqda;

5.13.3. Birliyin üzvlük haqqının vaxtında və tam həcmdə ödənilməsini təmin etmədikdə;

5.13.4. Nizamnamə məqsədlərinə zidd hərəkət etdikdə.

5.14. Üzvlükdən çıxarılma İdarə Heyətinin qərarı ilə həyata keçirilə bilər.

5.15. Birlik üzvünün həmin qərardan Birliyin ali idarəetmə orqanına və məhkəməyə şikayət etmək hüququ vardır.

## 6. BİRLİYİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏETMƏ ORQANLARI

6.1. Birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan Ümumi Yığıncaqdır.

6.2. Ümumi Yığıncaq Birliyin icra orqanlarının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır.

6.3. Birliyin təsisçilərinə və üzvlərinə Yığıncağın yeri və vaxtı haqqında iki həftə əvvəl məlumat verilməlidir.

6.4. Ümumi Yığıncağın səlahiyyətinə aşağıdakılar aiddir:

6.4.1. Birliyin Nizamnaməsinin qəbulu və ona dəyişikliklər edilməsi;

6.4.2. Birliyin əmlakının formalaşması və istifadə prinsiplərinin müəyyən edilməsi;

6.4.3. Birliyin icra və digər orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;

6.4.4. başqa təşkilatlarda iştirak;

6.4.5. Birliyin yenidən təşkili və ləğv edilməsi;

6.4.6. Birliyin icra və digər orqanlarının rəhbərlərinin hesabatının dinlənilməsi.

6.5. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur.

6.6. Ümumi Yığıncaqda müzakirə olunan məsələlər haqqında qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səsə malikdir. Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi və təşkilatın yenidən təşkili və ləğvi barədə qərarın qəbulu üçün 2/3 səs çoxluğu tələb olunur.

6.7. Birliyin fəaliyyətinə cari rəhbərliyi İdarə Heyəti həyata keçirir.

6.8. İdarə Heyətinin 3-dən az, 5-dən çox olmayan tək sayda üzvü ola bilər.

6.9. İdarə Heyəti Birliyin Prezidenti, onun müavinləri (vitse-prezidentləri) və digər üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

6.10. İdarə Heyəti kollegial icra orqanı olub aşağıdakı səlahiyyətlərə malikdir:

- Birliyin üzvlüyünə qəbul edir və üzvlükdən azad edir;
- Birliyin strukturunu təsdiq edir;
- Prezidentin təklifi ilə Baş Katibi vəzifəyə təyin və vəzifədən azad edir;
- təkliflər və layihələr irəli sürür;
- Birliyin inkişaf strategiyasını müəyyənləşdirir;
- Birliyin idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və əsasnamələri qəbul edir;
- Birliyin filial və nümayəndəliklərini yaradır;
- Birliyin Ümumi Yığıncağının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

6.11. İdarə Heyəti üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır və qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

6.12. İdarə Heyətinin Prezidenti, onun müavinləri və digər üzvləri Birliyin Ümumi Yığıncağı tərəfindən 4 (dörd) il müddətinə seçilir.

6.13. Birliyin Prezidenti:

- İdarə Heyətinin iclaslarına rəhbərlik edir;

- Birliyi təmsil edir, onun adından müqavilələr bağlayır, etibarnamələr verir, Ümumi Yığıncağın və İdarə Heyətinin qərarlarının icrasını təşkil edir;

- Birliyin işçilərini işə qəbul və işdən azad edir;

- Birliyin plan və hesabatlarını təsdiq edir;

- Ümumi Yığıncaq və İdarə Heyəti tərəfindən onun üzərinə qoyulan digər funksiyaları həyata keçirir.

6.14. Birliyin Prezidentinin təklifi ilə İdarə Heyəti tərəfindən 4 (dörd) il müddətinə Baş Katib təyin edilir. Baş Katib aşağıdakı vəzifələri yerinə yetirir:

- Bütün sənədləşmə və kargüzarlıq işlərini aparır, müvafiq sənədlərin layihələrini hazırlayır və İdarə Heyətinə təqdim edir;

- İdarə Heyəti tərəfindən verilmiş digər tapşırıqları icra edir.

6.15. Birliyin Nəzarət-təftiş Komissiyası (bundan sonra – Komissiya) Birliyin vəzifəli şəxslərinin və üzvlərinin fəaliyyətinin Nizamnaməyə uyğun olması, habelə Birliyin maliyyə fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

6.16. Komissiya üzvlərinin sayı və tərkibi Ümumi Yığıncaq tərəfindən müəyyən edilir. Komissiya üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər. Komissiyanın səlahiyyət müddəti 1 (bir) ildir. Komissiyanın qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

6.17. Komissiya Birliyin orqanlarından və üzvlərindən daxil olan müraciətlərə bir ay müddətində baxıb cavab verməlidir.

6.18. Dövlət qeydiyyatına alınmış Birlik Azərbaycan Respublikasının ərazisində və xaricdə filiallarını yarada, nümayəndəliklərini aça bilər. Birlik on gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə filial və (və ya) nümayəndəliyinin yaradılması haqqında məlumat verməlidir.

## 7. BİRLİYİN FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

7.1. Birliyin fəaliyyətinə onun yenidən təşkil edilməsi (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğv edilməsi yolları ilə xitam verilir. Birliyin fəaliyyətinə xitam verilməsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

7.2. Birliyin fəaliyyətinə xitam verilməsi haqqında qərara əsasən ləğvetmə komissiyası yaradılır. Bu andan Birliyin idarəçiliyi ilə əlaqədar bütün səlahiyyətlər ona keçir. Ləğvetmə komissiyası ləğvetmə balansını tərtib edir. Birliyin ləğvi zamanı büdcə ilə hesablaşmalardan və kreditorların tələbləri ödənildikdən sonra qalan əmlak qanunvericiliklə müəyyən olunmuş qaydada Nizamnamə məqsədlərinə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir. Birliyin ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına əsasən həyata keçirilir.

## 8. DİGƏR ŞƏRTLƏR

8.1. Bu Nizamnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə tənzimlənir.

8.2. Gələcəkdə bu Nizamnamənin müddəaları qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəaları tətbiq edilir.

8.3. Birliyin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvarda başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.